**Əlavə**

(İst: Paraq. A17–A18, A25)

**Rəyə dəyişikliklər edilmiş auditor hesabatlarının nümunələri**

• Nümunə 1: Maliyyə hesaba tlarında əhəmiyyətli təhriflərlə əlaqədar şərti müsbət rəy verilmiş auditor hesabatı.

• Nümunə 2: Konsolidə edilmiş maliyyə hesabatlarında əhəmiyyətli təhriflərlə əlaqədar mənfi rəy verilmiş auditor hesabatı.

• Nümunə 3: Affilə edilmiş xarici müəssisə ilə bağlı yetərli münasib audit sübutları əldə edilməsinin mümkün olmaması ilə əlaqədar şərti müsbət rəy verilmiş auditor hesabatı.

• Nümunə 4: Konsolidə edilmiş maliyyə hesabatlarının ayrıca bir elementi haqqında yetərli münasib audit sübutlarının əldə edilməsinin mümkün olmaması ilə əlaqədar auditorun rəy verməkdən imtina etməsi əks etdirilən auditor hesabatı.

• Nümunə 5: Maliyyə hesabatlarının bir neçə elementi haqqında yetərli münasib audit sübutlarının əldə edilməsinin mümkün olmaması ilə əlaqədar auditorun rəy verməkdən imtina etməsi əks etdirilən auditor hesabatı.

Nümunə 1 – Maliyyə hesabatlarında əhəmiyyətli təhriflərlə əlaqədar şərti müsbət rəy.
Auditor hesabatının bu nümunəsi üçün aşağıdakı şəraitlərin mövcud olması güman edilir:

- Düzgün təqdim edilmənin əsas prinsipləri ilə listinq subyektinin maliyyə hesabatlarının tam dəstinin auditi. Audit qrup auditi deyil (yəni, 600 saylı BAS [11] tətbiq edilmir).
- Maliyyə hesabatları rəhbərlik tərəfindən Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (IFRS) (ümumi təyinatlı əsas prinsiplər) uyğun olaraq hazırlanmışdır.
- Audit tapşırığının şərtlərində rəhbərliyin maliyyə hesabatlarına görə 210 saylı BAS-da [12] göstərilmiş məsuliyyəti əks etdirilmişdir.
- Mal-material ehtiyatları haqqında məlumatlarda təhriflər var. Hesab edilir ki, bu təhriflər maliyyə hesabatlarına əhəmiyyətli, lakin nüfuzedici olmayan təsir göstərir (yəni, şərti müsbət rəy müvafiqdir).
- Auditə dair tətbiq edilən müvafiq etika normaları yurisdiksiyada olanlardır.
- Əldə edilən audit sübutlarına əsasən auditor nəticə çıxarmışdır ki, 570 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq müəssisənin fəaliyyətini fasiləsiz davam etmək imkanını əhəmiyyətli dərəcədə şübhə altına alan hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.
- Əsas audit məsələləri haqqında 701 saylı BAS-ın tələblərinə uyğun olaraq məlumat verilmişdir.
- Maliyyə hesabatlarına nəzarətə görə məsul şəxslər ilə maliyyə hesabatlarının hazırlanmasına görə məsul şəxslər fərqlidir.
- Maliyyə hesabatlarının auditindən əlavə, auditorun yerli qanunvericiliyin tələblərinə əsasən digər hesabatvermə məsuliyyəti var.

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin təsisçilərinə [və ya digər müvafiq ünvan sahibinə]

Maliyyə hesabatlarının auditinə dair hesabat [13]

### Şərti müsbət rəy

Biz ABC şirkətinin 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, hesabatımızın "Şərti müsbət rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələnin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları Şirkətin 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (IFRS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (və ya düzgün və ədalətli təsəvvür yaradır).

[11] 600 saylı BAS, "Xüsusi mülahizələr – qrup maliyyə hesabatlarının auditi (o cümlədən bölmə auditorlarının işi)"

[12] 210 saylı BAS, "Audit tapşırığı şərtlərinin razılaşdırılması"

[13] "Digər hüquqi və tənzimləyici tələblərin yerinə yetirilməsinə dair hesabat" adlı ikincı yarımbaşlıq olmadıqda, "Maliyyə hesabatlarının auditinə dair hesabat" yarımbaşlığı tələb olunmur.

**Şərti müsbət rəy üçün əsaslar**

Şirkətin maliyyə vəziyyəti haqqında hesabatda mal-material ehtiyatları xxx məbləğdə göstərilmişdir. Rəhbərlik ehtiyatları ən aşağı maya dəyəri və xalis satış dəyəri ilə deyil, yalnız maya dəyəri ilə uçota almışdır ki, bu da Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarından kənara çıxmaqdır. Şirkətin mühasibat uçotu sənədləri göstərir ki, əgər rəhbərlik ehtiyatları ən aşağı maya dəyəri və xalis satış dəyəri ilə uçota alsaydı, uçota alınmış maya dəyəri ilə xalis satış dəyəri arasında fərq xxx olardı. Deməli, satışın dəyəri xxx qədər artmış olar, mənfəət vergisi, xalis mənfəət və xüsusi kapital, müvafiq olaraq, xxx, xxx və xxx qədər azalmış olardı.

Biz auditimizi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz [yurisdiksiyadakı] maliyyə hesabatlarının auditinə aid olan etik normalara uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etika məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Belə məsələlər maliyyə hesabatlarının auditi baxımından və belə maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bir tam kimi nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrıca rəy vermirik. "Şərti müsbət rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələdən əlavə, biz aşağıda təsvir edilən məsələləri hesabatda məlumat veriləcək əsas audit məsələləri kimi müəyyən etdik.

[Hər bir əsas audit məsələsinin 701 saylı BAS-ın tələblərinə uyğun təsvir edilməsi.]

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti [14]**

[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 1.]

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 1.]

**Digər hüquqi və tənzimləyici tələblərin yerinə yetirilməsi üzrə hesabat**

[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 1.]

Bu müstəqil auditor hesabatı ilə nəticələnən audit tapşırığı üzrə tərəfdaş [adı].

[Konkret yurisdiksiyadakı tələblərdən asılı olaraq, audit şirkətinin adından, auditorun şəxsən öz adından, və ya hər ikisinin adından imza]

[Auditorun ünvanı]

[Tarix]

---

[14] Auditor hesabatlarının bu nümunələrində “rəhbərlik” və “iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər” terminlərin konkret yurisdiksiyadakı əsas qanunvericilik prinsipləri baxımından uyğun olan digər termin ilə əvəz edilməsi lazım ola bilər.

Nümunə 2 – Konsolidə olunmuş maliyyə hesabatlarında əhəmiyyətli təhriflərlə əlaqədar mənfi rəy

Auditor hesabatının bu nümunəsi üçün aşağıdakı şəraitlərin mövcud olması güman edilir:

• Düzgün təqdim edilmənin əsas prinsipləri ilə listinq subyektinin konsolidə olunmuş maliyyə hesabatlarının tam dəstinin auditi. Audit törəmə müəssisələri olan subyektin qrup auditidir. (yəni, 600 saylı BAS tətbiq edilir).
• Konsolidə olunmuş maliyyə hesabatları rəhbərlik tərəfindən Beynəlxalq maliyyə hesabatları standartlarına (IFRS) (ümumi təyinatlı əsas prinsiplər) uyğun olaraq hazırlanmışdır.
• Audit tapşırığının şərtlərində rəhbərliyin konsolidə olunmuş maliyyə hesabatlarına görə 210 saylı BAS-da [12] göstərilmiş məsuliyyəti əks etdirilmişdir.
• Törəmə müəssisənin konsolidə olunmamasına görə konsolidə olunmuş maliyyə hesabatlarında əhəmiyyətli təhriflər var. Əhəmiyyətli təhriflərin konsolidə olunmuş maliyyə hesabatlarına nüfuzedici təsir göstərməyi güman edilir. Bu təhriflərin konsolidə olunmuş maliyyə hesabatlarına təsiri təyin edilməmişdir, çünki bu, məqsədəuyğun hesab olunmamışdır (yəni, mənfi rəy müvafiqdir).
• Auditə dair tətbiq edilən müvafiq etika normaları yurisdiksiyada olanlardır.
• Əldə edilən audit sübutlarına əsasən auditor nəticə çıxarmışdır ki, 570 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq müəssisənin fəaliyyətini fasiləsiz davam etmək imkanını əhəmiyyətli dərəcədə şübhə altına qoyan hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.
• 701 saylı BAS tətbiq olunur; lakin auditor müəyyən etmişdir ki, "Mənfi rəy üçün əsaslar" əks etdirilməsindən əlavə, əsas audit məsələləri mövcud deyil.
• Konsolidə olunmuş maliyyə hesabatlarına nəzarətə görə məsul şəxslər ilə konsolidə olunmuş maliyyə hesabatlarının hazırlanmasına görə məsul şəxslər fərqlidir.
• Maliyyə hesabatlarının auditindən əlavə, auditorun yerli qanunvericiliyin tələblərinə əsasən digər hesabatvermə məsuliyyəti var.

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin təsisçilərinə [və ya digər müvafiq ünvan sahibinə]

### Konsolidə olunmuş maliyyə hesabatlarının auditinə dair hesabat [15]

### Mənfi rəy

Biz ABC şirkətinin və onun törəmə müəssisələrinin (Qrup) 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə olunmuş hesabatından, konsolidə olunmuş məcmu gəlirlər hesabatından, konsolidə olunmuş kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətinə dair konsolidə olunmuş hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidə olunmuş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə olunmuş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, hesabatımızın "Mənfi rəy üçün əsaslar" bölməsində müzakirə edilən məsələnin vacibliyini nəzərə alaraq, əlavə edilmiş konsolidə olunmuş maliyyə

hesabatları Qrupun 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyətini, habelə konsolidə olunmuş maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün konsoldiə olunmuş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (IFRS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirmir (və ya düzgün və ədalətli təsəvvür yaratmır).

---

_

15 Digər hüquqi və tənzimləyici tələblərin yerinə yetirilməsinə dair hesabat" adlı ikincı yarımbaşlıq olmadıqda, "Konsolidə olunmuş maliyyə hesabatlarının auditinə dair hesabat" yarımbaşlığı tələb olunmur.

### Mənfi rəy üçün əsaslar

X qeydində izah edildiyi kimi, Qrup 20X1-ci ildə əldə edilmiş törəmə müəssisə olan XYZ şirkətini konsolidə etməmişdir, çünki onun hələ alınma tarixinə törəmə müəssisənin müəyyən material aktivlərinin və öhdəliklərinin ədalətli dəyərini müəyyən etmək imkanı olmamışdır. Buna görə həmin investisiyalara dəyər üzrə uçot metodu tətbiq olunmuşdur. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən, Şirkət törəmə müəssisəni konsolidə etməli (birləşdirilməli) və həmin investisiyaları əldə edilməyə görə ilkin dəyər əsasında uçota götürülməli idi. XYZ Şirkətinin konsolidə edilməməsi konsolidə olunmuş maliyyə hesabatlarının bir çox elementinə əhəmiyyətli təsir göstərəcəkdi. Konsolidə edilmiş maliyyə hesabatlarına konsolidə olunmamasının təsiri müəyyən edilməmişdir.

Biz auditimizi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Konsolidə olunmuş maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz [yurisdiksiyadakı] konsolidə olunmuş maliyyə hesabatlarının auditinə aid olan etik normalara uyğun olaraq Qrupdan asılı deyilik və biz digər etika məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları mənfi rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### Əsas audit məsələləri

"Mənfi rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələlərdən əlavə, biz hesabatımızda məlumat veriləcək başqa əsas audit məsələlərinin mövcud olmadığını müəyyən etdik.

### Konsolidə olunmuş maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti [16]

[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 2.]

### Konsolidə olunmuş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 2.]

### Digər hüquqi və tənzimləyici tələblərin yerinə yetirilməsi üzrə hesabat

705 saylı BAS (YENİDƏN BAXILMIŞ), "MÜSTƏQİL AUDİTORUN HESABATINDAKI RƏYƏ EDİLƏN DƏYİŞİKLİKLƏR"
[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 2.]

Bu müstəqil auditor hesabatı ilə nəticələnən audit tapşırığı üzrə tərəfdaş [*adı*].

[Konkret yurisdiksiyadakı tələblərdən asılı olaraq, audit şirkətinin adından, auditorun şəxsən öz adından, və ya hər ikisinin adından imza]

[Auditorun ünvanı]

[Tarix]

---

[16] Və ya konkret yurisdiksiyadakı əsas qanunvericilik prinsipləri baxımından uyğun olan digər terminlər.

Nümunə 3 – Affilə edilmiş xarici müəssisə ilə bağlı yetərli münasib audit sübutları əldə edilməsinin mümkün olmaması ilə əlaqədar şərti müsbət rəy
Auditor hesabatının bu nümunəsi üçün aşağıdakı şəraitlərin mövcud olması güman edilir:
- Düzgün təqdim edilmənin əsas prinsipləri ilə listinq subyektinin konsolidə olunmuş maliyyə hesabatlarının tam dəstinin auditi. Audit törəmə müəssisələri olan subyektin qrup auditidir. (yəni, 600 saylı BAS tətbiq edilir).
- Konsolidə olunmuş maliyyə hesabatları rəhbərlik tərəfindən Beynəlxalq maliyyə hesabatları standartlarına (IFRS) (ümumi təyinatlı əsas prinsiplər) uyğun olaraq hazırlanmışdır.
- Audit tapşırığının şərtlərində rəhbərliyin konsolidə olunmuş maliyyə hesabatlarına görə 210 saylı BAS-da göstərilmiş məsuliyyəti əks etdirilmişdir.
- Auditor affilə edilmiş xarici müəssisədə investisiyalarla əlaqədar yetərli münasib audit sübutları əldə edə bilməmişdir. Belə hesab olunur ki, yetərli münasib audit sübutlarını əldə etməyin mümkün olmaması konsolidə olunmuş maliyyə hesabatlarına əhəmiyyətli, lakin nüfuzedici olmayan təsir göstərə bilər (yəni, şərti müsbət rəy müvafiqdir).
- Auditə dair tətbiq edilən müvafiq etika normaları yurisdiksiyada olanlardır.
- Əldə edilən audit sübutlarına əsasən auditor nəticə çıxarmışdır ki, 570 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq müəssisənin fəaliyyətini fasiləsiz davam etmək imkanını əhəmiyyətli dərəcədə şübhə altına qoyan hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənlik mövcud deyil.
- Əsas audit məsələləri haqqında 701 saylı BAS-ın tələblərinə uyğun olaraq məlumat verilmişdir.
- Konsolidə olunmuş maliyyə hesabatlarına nəzarətə görə məsul şəxslər ilə konsolidə olunmuş maliyyə hesabatlarının hazırlanmasına görə məsul şəxslər fərqlidir.
- Maliyyə hesabatlarının auditindən əlavə, auditorun yerli qanunvericiliyin tələblərinə əsasən digər hesabatvermə məsuliyyəti var.

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

ABC şirkətinin təsisçilərinə [və ya digər müvafiq ünvan sahibinə]

Konsolidə olunmuş maliyyə hesabatlarının auditinə dair hesabat [17]

**Şərti müsbət rəy**

Biz ABC şirkətinin və onun törəmə müəssisələrinin (Qrup) 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyətinin konsolidə olunmuş hesabatından, konsolidə olunmuş məcmu gəlirlər hesabatından, konsolidə olunmuş kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətinə dair konsolidə olunmuş hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidə olunmuş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə olunmuş maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, hesabatımızın "Şərti müsbət rəy üçün əsaslar" bölməsində təsvir edilmiş məsələnin təsiri istisna olmaqla, qoşma konsolidə olunmuş maliyyə hesabatları Qrupun 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyətini, habelə konsolidə olunmuş maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün konsolidə olunmuş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (IFRS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (və ya düzgün və ədalətli təsəvvür yaradır).

---

[17] "Digər hüquqi və tənzimləyici tələblərin yerinə yetirilməsinə dair hesabat" adlı ikinci yarımbaşlıq olmadıqda, "Konsolidə olunmuş maliyyə hesabatlarının auditinə dair hesabat" yarımbaşlığı tələb olunmur.

**Şərti müsbət rəy üçün əsaslar**

Qrupun 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyətinin hesabatında həmin il alınmış, kapital üzrə uçot metodunun tətbiq olunduğu affilə olunmuş xarici müəssisə olan XYZ şirkətinə investisiyaları xxx məbləğində əks etdirilmiş, XYZ-in xalis gəlirində ABC şirkətinin payı göstərilən tarixdə başa çatan il üçün ABC şirkətinin gəlirinə daxil edilmişdir. Biz 31 dekabr 20X1-ci il tarixinə ABC-in XYZ-ə investisiyalarının balans dəyərinə və il ərzində XYZ-in xalis gəlirində ABC-nin payına dair yetərli münasib audit sübutları əldə edə bilməmişik, çünki XYZ-in maliyyə informasiyasını əldə etməyə, rəhbərliyi və auditorları ilə əlaqə saxlamağımıza icazə verilməmişdir. Nəticədə biz bu məbləğlərə hər hansı dəyişikliyin lazım olub-olmadığını müəyyən edə bilmədik.

Biz auditimizi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Konsolidə olunmuş maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz [yurisdiksiyadakı] konsolidə olunmuş maliyyə hesabatlarının auditinə aid olan etik normalara uyğun olaraq Qrupdan asılı deyilik və biz digər etika məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti müsbət rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün konsolidə olunmuş maliyyə hesabatlarının auditində ən çox əhəmiyyət kəsb edən məsələlərdir.

705 saylı BAS (YENİDƏN BAXILMIŞ), "MÜSTƏQİL AUDİTORUN HESABATINDAKI RƏYƏ EDİLƏN DƏYİŞİKLİKLƏR"
Belə məsələlər konsolidə olunmuş maliyyə hesabatlarının auditi baxımından və belə konsolidə olunmuş maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bir tam kimi nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrıca rəy vermirik. "Şərti müsbət rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələdən əlavə, biz aşağıda təsvir edilən məsələləri hesabatda məlumat veriləcək əsas audit məsələləri kimi müəyyən etdik

[Hər bir əsas audit məsələsinin 701 saylı BAS-ın tələblərinə uyğun təsvir edilməsi.]

**Konsolidə olunmuş maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti** [18]

[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 2.]

**Konsolidə olunmuş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 2.]

**Digər hüquqi və tənzimləyici tələblərin yerinə yetirilməsi üzrə hesabat**

[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 2.]

**Bu müstəqil auditor hesabatı ilə nəticələnən audit tapşırığı üzrə tərəfdaş [adı].**

[Konkret yurisdiksiyadakı tələblərdən asılı olaraq, audit şirkətinin adından, auditorun şəxsən öz adından, və ya hər ikisinin adından imza]

[Auditorun ünvanı]

[Tarix]

---

[18] Və ya konkret yurisdiksiyadakı əsas qanunvericilik prinsipləri baxımından uyğun olan digər terminlər

Nümunə 4 – Konsolidə olunmuş maliyyə hesabatlarının ayrıca bir elementi haqqında yetərli münasib audit sübutlarının əldə edilməsinin mümkün olmaması ilə əlaqədar auditorun rəy verməkdən imtina etməsi
Auditor hesabatının bu nümunəsi üçün aşağıdakı şəraitlərin mövcud olması güman edilir:
• Düzgün təqdim edilmənin əsas prinsipləri ilə listinq subyekti olmayan müəssisənin konsolidə olunmuş maliyyə hesabatlarının tam dəstinin auditi. Audit törəmə müəssisələri olan subyektin qrup auditidir. (yəni, 600 saylı BAS tətbiq edilir).
• Konsolidə olunmuş maliyyə hesabatları rəhbərlik tərəfindən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (IFRS) (ümumi təyinatlı əsas prinsiplər) uyğun olaraq hazırlanmışdır.
• Audit tapşırığının şərtlərində rəhbərliyin konsolidə olunmuş maliyyə hesabatlarına görə 210 saylı BAS-da göstərilmiş məsuliyyəti əks etdirilmişdir.
• Auditor konsolidə olunmuş maliyyə hesabatlarının ayrıca elementi ilə əlaqədar yetərli

münasib audit sübutları əldə edə bilməmişdir. Yəni auditor, həmçinin, birgə müəssisəyə subyektin xalis aktivlərinin 90%-dən çoxunu təşkil edən investisiyalarının maliyyə informasiyası haqqında audit sübutlarını əldə edə bilməmişdir. Belə hesab olunur ki, yetərli münasib audit sübutlarını əldə etməyin mümkün olmaması konsolidə olunmuş maliyyə hesabatlarına həm əhəmiyyətli, həm də nüfuzedici təsir göstərə bilər (yəni, rəy verməkdən imtina müvafiqdir).
- Auditə dair tətbiq edilən müvafiq etika normaları yurisdiksiyada olanlardır.
- Konsolidə olunmuş maliyyə hesabatlarına nəzarətə görə məsul şəxslər ilə konsolidə olunmuş maliyyə hesabatlarının hazırlanmasına görə məsul şəxslər fərqlidir.
- "Auditorun məsuliyyətinin daha məhdud təsviri" bölməsi tələb olunur.
- Konsolidə olunmuş maliyyə hesabatlarının auditindən əlavə, auditorun yerli qanunvericiliyin tələblərinə əsasən digər hesabatvermə məsuliyyəti var.

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin təsisçilərinə [və ya digər müvafiq ünvan sahibinə]

**Konsolidə olunmuş maliyyə hesabatlarının auditinə dair hesabat** [19]

**Rəydən imtina**

Biz ABC şirkətinin və onun törəmə müəssisələrinin (Qrup) 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyətinin konsolidə olunmuş hesabatından, konsoldiə olunmuş məcmu gəlirlər hesabatından, konsolidə olunmuş kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətinə dair konsolidə olunmuş hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidə olunmuş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə olunmuş maliyyə hesabatlarının auditini aparmışıq

Biz Qrupun konsolidə olunmuş maliyyə hesabatlarına dair rəy bildirmirik. "Rəydən imtina üçün əsaslar" bölməsində təsvir edilmiş məsələnin vacibliyi üzündən bu konsolidə olunmuş maliyyə hesabatlarına dair auditor rəyini əsaslandırmaq üçün bizim yetərli münasib audit sübutları əldə etməyə imkanımız olmamışdır.

---

[19] Digər hüquqi və tənzimləyici tələblərin yerinə yetirilməsinə dair hesabat" adlı ikinci yarımbaşlıq olmadıqda, "Konsolidə olunmuş maliyyə hesabatlarının auditinə dair hesabat" yarımbaşlığı tələb olunmur.

**Rəydən imtina üçün əsaslar**

Qrupun maliyyə vəziyyətinin konsolidə olunmuş hesabatında birgə müəssisəsi olan XYZ şirkətinə Qrupun investisiyaları xxx həcmində əks etdirilmişdir və 31 dekabr 20X1-ci il tarixinə Qrupun xalis gəlirləri 90%-dən çoxunu təşkil edir. Bizə XYZ-in rəhbərliyi və auditorları ilə əlaqə saxlamağa, o cümlədən XYZ şirkətinin auditorlarının audit sənədlərindən istifadə etməyə icazə verilməmişdir. Nəticədə bizim XYZ-in öz tərəfdaşı

(tərəfdaşları) ilə birgə nəzarət etdiyi aktivlərində, yerinə yetirilməsinə görə tərəfdaşı (tərəfdaşları) ilə birgə məsuliyyət daşıdığı XYZ-in öhdəliklərindəki payına, XYZ-in il ərzindəki gəlir və xərclərinin payına, habelə kapitalda dəyişikliklər hesabatının və pul vəsaitlərinin hərəkəti hesabatının elementlərinə hər hansı bir düzəliş etmək zərurətini müəyyən etməyə imkanımız olmamışdır.

**Konsolidə olunmuş maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti** [20]

[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 2.]

**Konsolidə olunmuş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim vəzifəmiz Beynəlxalq audit standartlarına uyğun olaraq Qrupun konsolidə olunmuş maliyyə hesabatlarının auditini aparmaq və auditorun hesabatını dərc etməkdir. Lakin “Rəydən imtina üçün əsaslar” bölməsində təsvir edilmiş məsələ üzündən auditor rəyini əsaslandırmaq üçün bizim yetərli münasib audit sübutları əldə etməyə imkanımız olmamışdır.

Biz [yurisdiksiyadakı] maliyyə hesabatlarının auditinə aid olan etik normalara uyğun olaraq Qrupdan asılı deyilik və biz digər etika məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik.

**Digər hüquqi və tənzimləyici tələblərin yerinə yetirilməsi üzrə hesabat**

[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 2.]

[Konkret yurisdiksiyadakı tələblərdən asılı olaraq, audit şirkətinin adından, auditorun şəxsən öz adından, və ya hər ikisinin adından imza]

[Auditorun ünvanı]

[Tarix]

---

[20] Və ya konkret yurisdiksiyadakı əsas qanunvericilik prinsipləri baxımından uyğun olan digər terminlər

Nümunə 5 – Maliyyə hesabatlarının bir neçə elementi haqqında yetərli münasib audit sübutlarının əldə edilməsinin mümkün olmaması ilə əlaqədar auditorun rəy verməkdən imtina etməsi

Auditor hesabatının bu nümunəsi üçün aşağıdakı şəraitlərin mövcud olması güman edilir:

- Düzgün təqdim edilmənin əsas prinsipləri ilə listinq subyekti olmayan müəssisənin maliyyə hesabatlarının tam dəstinin auditi. Audit qrup auditi deyil (yəni, 600 saylı BAS tətbiq edilmir).
- Maliyyə hesabatları rəhbərlik tərəfindən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (IFRS) (ümumi təyinatlı əsas prinsiplər) uyğun olaraq hazırlanmışdır.
- Audit tapşırığının şərtlərində rəhbərliyin maliyyə hesabatlarına görə 210 saylı BAS-da göstərilmiş məsuliyyəti əks etdirilmişdir.
- Auditor maliyyə hesabatlarının bir neçə elementi haqqında yetərli münasib audit sübutları əldə edə bilməmişdir, yəni auditor müəssisənin mal-material ehtiyatları və debitor borcları haqqında audit sübutları əldə edə bilməmişdir. Belə hesab olunur ki, yetərli münasib audit sübutlarını əldə etməyin mümkün olmaması maliyyə hesabatlarına həm əhəmiyyətli, həm də nüfuzedici təsir göstərə bilər.
- Auditə dair tətbiq edilən müvafiq etika normaları yurisdiksiyada olanlardır.
- Maliyyə hesabatlarına nəzarətə görə məsul şəxslər ilə maliyyə hesabatlarının hazırlanmasına görə məsul şəxslər fərqlidir.
- "Auditorun məsuliyyətinin daha məhdud təsviri" bölməsi tələb olunur.
- Maliyyə hesabatlarının auditindən əlavə, auditorun yerli qanunvericiliyin tələblərinə əsasən digər hesabatvermə məsuliyyəti var.

## MÜSTƏQİL AUDİTORUN HESABATI

ABC şirkətinin təsisçilərinə [və ya digər müvafiq ünvan sahibinə]

**Maliyyə hesabatlarının auditinə dair hesabat [21]**

**Rəydən imtina**

Biz ABC şirkətinin (Şirkət) 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyətinin hesabatından, məcmu gəlirlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Biz Şirkətin maliyyə hesabatlarına dair rəy bildirmirik. Hesabatımızın "Rəydən imtina üçün əsaslar" bölməsində təsvir edilmiş məsələnin vacibliyi üzündən bu qoşma maliyyə hesabatlarına dair auditor rəyini əsaslandırmaq üçün bizim yetərli münasib audit sübutları əldə etməyə imkanımız olmamışdır.

**Rəydən imtina üçün əsaslar**

Biz 31 dekabr 20X1-ci il tarixindən sonra şirkətin auditorları olaraq təyin edilmişik və bu səbəbdən ilin əvvəlində və sonunda mal-material ehtiyatlarının fiziki inventarizasiyasını müşahidə etməmişik. Biz maliyyə vəziyyətinin hesabatında, müvafiq olaraq, xxx və xxx

həcmində göstərilən ehtiyatların 31 dekabr 20X0-cu və 20X1-ci il tarixlərinə olan sayı haqqında alternativ prosedurların köməyi ilə bizi qane edə bilən informasiya əldə edə bilmədik.

[21] "Digər hüquqi və tənzimləyici tələblərin yerinə yetirilməsinə dair hesabat" adlı ikinci yarımbaşlıq olmadıqda, "Maliyyə hesabatlarının auditinə dair hesabat" yarımbaşlığı tələb olunmur.

Bundan əlavə, 20X1-ci ilin sentyabrında yeni kompüterləşdirilmiş debitor borcları sisteminin tətbiqi debitor borclarında çoxsaylı səhvlərə gətirib çıxarmışdır. Bizim auditor hesabatının tarixinədək rəhbərlik sistemdə çatışmazlıqların aradan qaldırılması və səhvlərin düzəldilməsini başa çatdırmamışdır. Biz 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyətinin hesabatında əks etdirilmiş xxx məbləğində debitor borcunu alternativ prosedurların köməyi ilə təsdiqləyə və ya yoxlaya bilmədik. Bu məsələlərin nəticəsində uçota alınmış və ya uçota alınmamış ehtiyatlar və debitor borcları, habelə məcmu gəlirlər hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatı ilə əlaqədar hansısa düzəlişlərin tələb olunub-olunmadığını müəyyən etməyə imkanımız olmamışdır.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti** [22]

[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 1.]

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim vəzifəmiz Beynəlxalq audit standartlarına uyğun olaraq şirkətin maliyyə hesabatlarının auditini aparmaq və auditorun hesabatını dərc etməkdir. Lakin "Rəydən imtina üçün əsaslar" bölməsində təsvir edilmiş məsələ üzündən bu maliyyə hesabatlarına dair auditor rəyini əsaslandırmaq üçün bizim yetərli münasib audit sübutları əldə etməyə imkanımız olmamışdır.

Biz [yurisdiksiyadakı] maliyyə hesabatlarının auditinə aid olan etik normalara uyğun olaraq şirkətdən asılı deyilik və biz digər etika məsuliyyətlərimizi bu tələblərə uyğun yerinə yetirmişik.

**Digər hüquqi və tənzimləyici tələblərin yerinə yetirilməsi üzrə hesabat**

[700 saylı BAS-ın (Yenidən baxılmış) tələblərinə uyğun olaraq hesabat vermə - bax BAS 700 (Yenidən baxılmış), Nümunə 1.]

[Konkret yurisdiksiyadakı tələblərdən asılı olaraq, audit şirkətinin adından, auditorun şəxsən öz adından, və ya hər ikisinin adından imza]

[Auditorun ünvanı]

[Tarix]

[22] Və ya